

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

25 yanvar 2025-ci il
Şənbə

1933-cü ildən çıxır
№ 3 (3715)

# Qətiyyətli lider, qüdrətli dövlət

## Azərbaycan sabitlik və inkişaf məkanına çevrilib

**Bu həftə dünyanın siyasi-iqtisadi elitasının diqqəti Davosa yönəldi. Beş gün ərzində Davos Dünya İqtisadi Forumunda mühüm məsələlər müzakirə olundu. Bu tədbirin ölkəmiz üçün əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın adı Forumun fəal ölkələri sırasında öndə gəlir.**



Prezident İlham Əliyev hər il forumun işində aktiv iştirak edir. Azərbaycan lideri bu qlobal iqtisadi tədbirin ən nüfuzlu qonaqları sırasındadır. Dövlət başçısının hər il bu nüfuzlu tədbirə dəvət olunması onun dünya liderləri arasında tutduğu yüksək mövqenin göstəricisidir. Prezidentin rəhbərliyi ilə Azərbaycanın uğurları, strateji layihələri və əməkdaşlıq perspektivləri forum çərçivəsində dünyaya çatdırılır.

Bir məqamı da qeyd etmək lazımdır ki, ölkəmizin başçısı hər il forumda iştirak zamanı ayrı-ayrı ölkələrin liderləri ilə yanaşı, dünyanın nüfuzlu şirkətlərinin rəhbərləri, tanınmış iş adamları ilə çoxsaylı görüşlər keçirir, beynəlxalq miqyaslı media qurumlarına, jurnalistlərə müsahibələr verir.

Davosa budəfəki səfərdə Prezident İlham Əliyev yanvarın 21-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, yanvarın 22-də Ukrayna Prezidenti Volodimir Zelenski, ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur və Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb.

Yeri gəlmişkən, bu görüşlər məhz qarşı tərəfin təşəbbüsü ilə olub. Bu da Azərbaycana olan hörmətdən, ölkəmizin qazandığı etibarlı tərəfdaş imicindən, dövlətimizin başçısının yüksək nüfuzundan qaynaqlanır. Prezidentin görüşdüyü şirkət rəhbərləri də birmənalı olaraq Azərbaycanda fəaliyyətlərini genişləndirmək, yaxud işbirliyi qurmaq, əməkdaşlıq və tərəfdaşlıq etmək istədiklərini bildiriblər.

Ümumiyyətlə, Azərbaycanın bugünkü reallıqlarına nəzər salsaq görərik ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf məkanına çevrilib.

Prezident İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirib, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərib.

Xüsusilə qeyd etməliyik ki, dövlətimizin başçısı İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir.

Dövlət başçısının təşəbbüsləri beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunə ortaya qoyur.

Məhz buna görə dünya siyasətinin aparıcı qurumları, mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizliyə, qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirir və ölkəmizlə əməkdaşlığa can atırlar.

İstər Davos İqtisadi Forumu, istər Münhen Təhlükəsizlik Konfransı, istərsə də digər beynəlxalq təşkilatların toplantılarında iştirak bir daha sübut edir ki, dünya ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, cənab Prezidenti sözünün sahibi, etibarlı tərəfdaş və regionun alternativsiz lideri olduğunu hesab edirlər.

# Prezidentdən başsağlığı

## Türkiyənin yanındayıq

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 23-də Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar həmkarına dərin hüznlə başsağlığı verib. Telefon danışığı əsnasında ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılıb.

# Şəhidlərə ehtiram

## Dövlət başçısı Şəhidlər xiyabanına gedib

Qanlı 20 Yanvar faciəsindən 35 il keçdi. Faciə ilə bağlı Prezident İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib. Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

# Səmərəli əməkdaşlıq

## Maliyyə sazişi imzalanıb

Prezident İlham Əliyevin yanvarın 22-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odile Reno-Basso ilə görüşündə Gəncə şəhərinin su təsərrüfatı ilə bağlı layihənin icra olunmasının imzalanma mərasimi keçirilib. Görüşdə Avropaya yaşıl enerjinin ixracı, bununla bağlı həm Gürcüstanla, həm də Mərkəzi Asiya ölkələri ilə regional əməkdaşlıq layihələri və imkanları barədə müzakirələr də aparılıb.

# Logistika mərkəziyik

## Ölkəmiz mühüm qovşaqdır

Davosda Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparılıb. Prezident İlham Əliyev yanvarın 21-də "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşərkən ölkəmizin regional nəqliyyat qovşağı kimi rolu xüsusi ilə vurğulanıb.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev yanvarın 23-də Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 16-da "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 16-da "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiq edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 15-də ədəbiyyatın inkişafında xidmətlərinə görə Afaq Məsud qızı Vəliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev yanvarın 15-də Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb.

# Daxili İşlər Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanını ziyarət edib

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Daxili İşlər Nazirliyinin şəxsi heyəti Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət ediblər.



Vətənin sınağından çıxanlar 3

Peşəkarların xidməti 3

Valideynlər "Açıq qapı"dan keçiblər 4

Yaradılışın daha bir möcüzəsi 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Sülhə "iki addım" qalıb

Azərbaycanın Ermənistanla postmünaqişə mərhələsində təmasları davam edir. Xarici işlər naziri Ceyhun Bayramov deyib ki, bu il də proses davam edəcək. Növbəti belə görüşün tarixi hələ bəlli olmasa da, danışıqlar Ermənistanla sülh müqaviləsinin mətnində iki maddə üzrə aparılır.

## Seçki prosesi yenə şəffaf olacaq

Veb-kameralar quraşdırılan 1000 məntəqə ölkənin bütün coğrafiyasını əhatə edir. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib ki, heç bir icazə və qeydiyyat olmadan dünyanın hər yerindən həmin kameralar vasitəsilə bələdiyyə seçkilərini izləmək mümkün olacaq.

## Proqnozlar nikbindir

Bizim 2025-ci il ilə bağlı proqnozlarımız nikbindir. Bu il Azərbaycan iqtisadiyyatının artımı proqnozu 3,3 faiz olacağı gözlənilir. Bu barədə Mərkəzi Bankın sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirdiyi brifinqdə deyib. O, bildirib ki, qeyri-neft sektoru üzrə iqtisadi artım proqnozu bu il üzrə 5,2 faiz müəyyən edilib.

## Gəlirlərimiz nə qədər artıb?

Ötən il ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilə nisbətən 6,4 faiz artaraq 83 milyard 93,4 milyon manat və ya hər nəfərə orta hesabla 8144,1 manat olub. Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin sərəncamında qalan gəlirləri 73 milyard 409,4 milyon manat təşkil edib.

## Zərərçəkənlərlə görüş keçirilib

Daxili İşlər Nazirliyinin rəhbərliyi yanvarın 18-də İmişli rayonu ərazisində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsində zərərçəkənləri qəbul edib. Qəbulda ailə üzvlərinə hadisənin təfərrüatları, maddi sübutlar - görüntülər göstərilib, aidiyyəti üzrə istintaqın gedişi ilə bağlı məlumat verilib.Vurğulanıb ki, DİN hadisə üzrə istintaqın obyektiv aparılması, zərərçəkənlərin hüquqlarının təmin olunması üçün bütün zəruri tədbirləri diqqət mərkəzində saxlayır.

## Onlar da silah ala bilər

Azərbaycanda 21 yaşına çatmış vətəndaşlara mülki odlu silah əldə etmək hüququ verilir. Bu, "Xidməti və mülki silah haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, Qanunun 2.1. 7-ci maddəsinin I hissəsinə "mülki silah" sözlərindən sonra "(odlu silah istisna olmaqla)" sözləri və "Azərbaycan Respublikasında iyirmi bir yaşına çatmış vətəndaşların mülki odlu silah əldə etmək hüququ vardır." məzmununda ikinci cümlə əlavə edilir.

## Məhkumluqla bağlı vahid portal yaradılır

Dövlət satınalmalarında iştirak edən təchizatçılar artıq satınalan təşkilatlara məhkumluq barədə arayışları vahid internet portal vasitəsilə təqdim edə biləcəklər. Portal Daxili İşlər Nazirliyi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin birgə icra etdiyi layihə çərçivəsində təşkil olunacaq. İqtisadi sahədə cinayətlər, kibercinayətlər, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma kimi cinayətlərə görə məhkum olunması barədə məhkəmə qərarları portala arayış formasında ötürüləcək.

## Metroda qayda pozanların cəriməsi artırılıb

Bakı metrosunda istifadə qaydalarının pozulmasına görə bəzi cərimələrin məbləği artırılıb. İnzibati Xətalar Məcəlləsinin 306-cı maddəsinə əsasən, stansiyaların vestibülləri, keçidləri, platformaları, eskalatorlar və vaqonların salonlarının zibillənməsi və ya üzərlərində yazılar yazılması, məhdudiyyət çəpərləri və qadağanedici nişanlarla qorunan yerlərdən stansiyaya daxil olunması, eləcə də zərurət olmadan "sərnişin-maşinist" rabitəsindən istifadə edilməsi üçün cərimələr 15 manatdan 200 manata qədər artırılıb. Dəmir yoluna əşya atılmasına görə tətbiq edilən cərimə 30 manatdan 200 manata qədər yüksəldilib.

## Əlillər də işlə təmin olunur

Son bir ildə əlilliyi olan 13 minə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, onlardan 10,9 mini şəxsi münasib işlərlə təmin edilib.Həmçinin ötən il əlilliyi olan 1,5 min şəxs özünüməşğulluq proqramına cəlb edilib. Onlar proqram çərçivəsində mal və materiallarla təmin olunaraq öz kiçik təsərrüfatlarını qurublar.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

## Qanunla müəyyən edilmiş vəzifələr bundan sonra da uğurla davam etdiriləcək

**Yanvarın 24-də Daxili İşlər Nazirliyində 2024-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq mühafizə siyasətinin sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik hesabat ilində də etibarlı qorunub.

Qeyd olunub ki, cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib, qanunla müəyyən edilmiş funksiyalar digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə davam etdirilib. Daxili işlər orqanlarının əməkdaşları miqyasına görə indiyədək ölkəmizdə keçirilən konfrans, yarış və mərasimlərlə müqayisəyə gəlməyən COP29-un yüksək təhlükəsizlik şəraitində keçməsi üçün üzərinə düşən vəzifələri və qarşıya qoyulmuş tapşırıqları aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlıq şəraitində əzmlə yerinə yetirib.

### Göstəricilər qənaətbəxşdir

Hesabat məruzəsi ilə çıxış edən nazir V.Eyvazov vurğulayıb ki, 2024-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 33.379 cinayət qeydə alınıb, onlardan 87,6 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 327 fakt təşkil edib. Cinayətlərin 94,4 faizi və ya 31.526-sı daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 90,3 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 87,3, qeyri-aşkar şəraitdə baş verənlərin 86, şəxsiyyət əleyhinə olanların 98,9, onlardan qəsdən adam öldürmələrin 96,6, adam öldürməyə cəhdlərin 95,2, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, mülkiyyət əleyhinə olanların 83,3 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri 3 faiz yaxşılaşaraq 87,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 3271 nəfər tutulub, 216 kriminal qrup zərərsizləşdirilib.

Davam etdirilən profilaktik tədbirlərin nəticəsi olaraq müqayisə edilən dövrə nisbətən 2024-cü ildə qrup halında baş verən cinayətlərin sayında 23,2, ictimai yerlərdə baş verənlərin sayında 9, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlərin sayında 8 faiz azalma qeydə alınıb.

Ümumi cinayətlər 9,4, ağır və xüsusilə ağır cinayətlər 18,9, qeyri-aşkar şəraitdə baş verənlər 18,1, qəsdən adam öldürmələr 9,6, adam öldürməyə cəhdlər 16,9, qəsdən sağlamlığa ağır zərər vurmalar 13,5, xuliqanlıqlar 5, odlu silahın tətbiqi ilə törədilənlər 21, mülkiyyət əleyhinə olanlar 10,4, onlardan avtonəqliyyat vasitələrini qaçırmalar 9,5, habelə yol-nəqliyyat hadisələri 12,8, qəzalarda xəsarət alanların sayı 13,1, ölənlərin sayı 11,4 faiz azalıb.

Prokurorluq orqanlarının əməkdaşları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında nəzərəçarpan irəliləyiş əldə edildiyini, 630 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğunu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük bir iş həcminin yerinə yetirildiyini qeyd edib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri yaxşılaşaraq 87,9 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 118 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 65 nəfərin yeri müəyyən olunub.



Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 527 fakt müəyyən edilib, həmin cinayətlərə görə 247 nəfər tutulub. Ümumilikdə 7.227 odlu silah və 1 milyona yaxın sursat aşkarlanıb.

### Narkotiklərlə mübarizə prioritetdir



Narkotiklərlə mübarizənin də vəziyyətinə toxunan nazir V.Eyvazov bildirib ki, qanunsuz dövriyyədən 2023-cü il ilə müqayisədə 250 kiloqram çox - 4 ton 714 kiloqram, narkotik vasitə götürülüb, 283 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 466 fakt üzrə 2 ton 51 kiloqram müvafiq vasitə aşkarlanıb və narkotiklərlə əlaqəli cinayətlərə görə 108 cinayətkar qrup zərərsizləşdirilib. Bu istiqamətdə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir müvafiq fəaliyyətin qətiyyətlə davam etdirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmin cinayətlərlə mübarizədə vətəndaşların iştirakını, məlumatları əsasında uğurlu nəticələri olan bir çox əməliyyatların keçirildiyini, müşahidə olunan müsbət təmayüllərin məhz günbəgün möhkəmlənən polis-vətəndaş münasibətlərinin təzahürü olduğunu, Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloqerlərdən daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Nazir onların, eləcə də yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsin, o cümlədən ictimai fəalların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və media mənsublarının fəaliyyətini təqdir edərək hər birinə təşəkkürünü bildirib.

### Maarifləndirmək də mübarizədir

Həmçinin ölkədə aparılan antinarkotik təbliğatın əhəmiyyətini qeyd edərək ötən il bu sahədə ərazi polis orqanlarının rəhbərlərinin iştirakı ilə 1200-ə yaxın maarifləndirmə tədbirinin keçirildiyini nəzərə çatdırıb, bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, cari ildə də fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib, respublikanın təhsil müəssisələrində həyata keçirilən maarifləndirmə və təbliğat tədbirlərində iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, yüksək ixtisaslı pedaqoqların, ictimaiyyətin tanınmış nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tapşırıb.

### Qadınlara qarşı zorakılıq yolverilməzdir

Qadınlara qarşı zorakılıqla müşayiət olunan cinayətlərin qarşısının alınması, açılması, zorakılıq etmiş şəxslərin cəzasızlığına yol verilməməsi üçün qabaqlayıcı tədbirlərin davam etdirildiyini bildirən nazir qadınların təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materialların mütəmadi təhlil olunduğunu, onları cinayətə təhrik edən amillərin öyrənilib aradan qaldırılması üçün tədbirlərin görüldüyünü, o cümlədən aidiyyəti orqan və təşkilatlara vəsatətlər verildiyini qeyd edib. Zorakı əməllərdən və məişət zəminində baş vermiş cinayətlərdən zərər çəkən qadınların prosessual hüquqlarının müdafiəsi istiqamətində görülmüş işlərin nəticəsi olaraq 2024-cü ildə qadınlarla bağlı törədilmiş cinayətlərin ümumi sayında 47 fakt, o cümlədən ailə münaqişəsi zəminli cinayətlərin sayında 1,8 faiz azalma müşahidə olunduğunu vurğulayıb.

### Yeniyetmə və gəncləri qorumaq əsas hədəflərdəndir

Nazir yeniyetmə və gənclərin hüquqazidd hərəkətlərinin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin müsbət nəticələr verdiyini və onların hüquqazidd əməllərinin dinamikasında 18,5 faiz azalmanın qeydə alındığını da bildirərək gənclərin bəzi sosial şəbəkə seqmentlərində yayımlanan zərərli informasiyaların təsiri altına düşməməsi, sağlamlığa ziyanlı vərdişlərdən çəkindirilməsi istiqamətində aparılan işlərin səmərəsinin artırılmasını tələb edib.

### Vətəndaş məmnunluğu həm tələbdir, həm də fəaliyyətin meyarı

Diqqətə çatdırılıb ki, hesabat ilində 6.055, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4.468 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Eyni zamanda Nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması kimi mühüm vəzifələrin icrasına da toxunan general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyət ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu bildirib.

### Müraciətlərə çevik reaksiya verilir

"102" Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış müraciətlərə də çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 80,3 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqinin yaradıldığını, "Elektron Xidmətlər Portalı" üzərindən göstərilən 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını nəzərə çatdırıb.

İclasın gündəliyinə uyğun olaraq hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Məruzə ətrafında çıxış edənlər görülən işlərdən, əldə olunan nəticələrdən, mövcud olan nöqsanlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

*(ardı 3-cü səhifədə)*

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

## Qanunla müəyyən edilmiş vəzifələr bundan sonra da uğurla davam etdiriləcək

*(əvvəli 2-ci səhifədə)*

Kollegiya iclasına yekun vuran nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, bundan sonra da hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının etibarlı qorunmasını, əməkdaşların vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına daim riayət etməsini, eyni zamanda qətiyyətli olmasını, qanunçuluğun möhkəmləndirilməsini, peşəkarlıq səviyyəsinin artırılmasını tələb edib, xidməti fəaliyyətin səmərəliliyinin davamlı olaraq artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin bildirib ki, ölkədə cinayətkarlıqla mübarizədə, asayişin və təhlükəsizliyin təmini işində əldə edilmiş müsbət nəticələr Daxili İşlər Nazirliyinin əməkdaşlarını arxayınlaşdırmır, şəxsi heyət suverenliyini tam təmin etmiş Azərbaycanın bütün ərazilərində qanunla müəyyən edilmiş vəzifələrin icrasını davam etdirərək xalqa xidmət funksiyalarını layiqincə və əzmlə həyata keçirməyə çalışır.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələr böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

# Vətənin sınağından çıxanlar

## Qazandığımız qələbə xalqını, dövlətini sevənlərin şah əsəridir

**Güclülər həm də ədalətli olanda qalib gəlir. Bəlkə də çoxu bu fikrimlə razılaşmaz və onlar mövqelərini yaxın keçmişimizdə baş verənləri əsas gətirərək müdafiə etməkdə israrlılıq nümayiş etdirərlər. Bundan belə qənaətə gəlmək olar ki, deməli, mübahisə meydanında hər kəsin müdafiə etdiyi öz həqiqəti olur və uğrunda nələrisə qurban verməkdən belə çəkinmir.**

Məsələn, Xocalı soyqırımının bilavasitə iştirakçısı olan Serj Sarkisyanın "Xocalıya qədər Azərbaycan tərəfi elə bilirdi ki, bizimlə zarafat eləmək olar. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyil. Biz bu stereotipə son qoyduq. Baş verən hadisə də bu idi",-deməsi onun və erməni millətçilərinin inandığı "həqiqət" idi. Və həmin "həqiqət" 1813-dən bəri yüz minlərlə insanı qanına qəltan etmiş, soyqırımlar törətmiş, deportasiyalara rəvac vermişdi. Yüz illər öncə "Müharibə danışanda, qanunlar susur" fikri ilə çox incə mətləbələrə toxunan Siseron əslində gələcək nəsillərə bütün dövrlərin aksiomasına çevrilən mesaj ötürmüşdü. Yəni müharibə həm də güclü olduğunu təsdiq etməyin tək və yeganə yoludur. Tökülən qanlar, insan itkiləri və s. kimi faktlar sadəcə xatırlanar…

"Böyük qarşıdurmalar qətnamə və danışıqlarla deyil, silah və qanla həll edilir. Hər millət taleyi üçün öz qılıncına güvənməlidir ",- deyən Otto fon Bismarkdan sonra Albert Eynşteynin "Mən sülh uğrunda müharibə etmək istəyirəm" fikri nə ötən əsrin, nə də ki, yaşadığımız 21-ci yüzilliyin nəbzini tuta bilmədi, daha doğrusu, reallığa çevrilə bilmədi. Reallıq budur ki, indi müharibələr sülh üçün aparılır. Məntiqlə bəşəriyyəti inkişafa, xoşbəxt gələcəyə səsləyən bir dəyər uğrunda müharibə aparmağın özü məntiqsiz görünür. Deməli, dahilərin sözü səmavi kitablarda yazılan yaradanın sözü deyil ki, müzakirə olunmasın, çək-çevir edilməsin…

Qəribə səslənsə də əgər nə vaxtsa XXI əsrin ən ədalətli müharibəsi başlığı altında sorğu keçirilərsə inanıram ki, respon-





dentlərin çoxunun cavabı Azərbaycanın Ermənistanın 30 ildən çox davam edən elan olunmamış müharibəsinə və təxribatlarına qarşı apardığı 44 günlük Vətən müharibəsi olacaq. Bu münaqişənin müharibəyə çevrilməsi prosesini sürətləndirənlər təəssüfər olsun ki, bu gün də dünyanın istənilən nöqtəsini barıt çəlləyinə döndərmək üçün dəridən-qabıqdan çıxırlar. Yaradıcı deyil, dağıdıcı ideyalara bilərəkdən meydan verilməsi özünü bütün cəbhələrdə göstərir. Yeni münaqişə ocaqlarının yaranması ilə yanaşı, mənəvi aşınmalara yol açan "yeniliklər" insanları ilkinliyindən qoparmağa xidmət etmirmi?...

Hədəf həm də gənclikdir, gələcəkdir. Ancaq bugünkü Azərbaycan reallığı yaxın çevrəmiz, elə dünya üçün də bir örnəkdir. Biz gələcəyimizə də, gəncliyimizə də etibar etməkdə yanılmamışıq. Çünki 4 il öncə onlara etibar edib, etimad göstərib Vətənin taleyini həvalə etdik. Müharibə haqqında kitablardan oxuyan, onun səbəb olduqlarını sənədli və bədii filmlərdən izləyən gəncliyin görmədən sevdiyi torpaqlar uğrunda döyüşməsi, onu azadlığına qovuşdurmaq üçün canından keçməsi gerçək bir tarixdir. Bu həm də o deməkdir ki, dəyişən dünya düzənində milli kimliyinə sahib çıxan, keçmişi ilə qürur duymaq əzmində yetişdirilən gəncliyə dövlətçiliyin prinsiplərini aşılamaqla onu gələcək hədəflərə doğru hazırlamaq ilə-rin təcrübəsinin, zəhmətinin bəhrəsidir. Məhz Azərbaycanımızı bir bayraq altında birləşdirən Azərbaycançılıq adlı dəyərin, ideologiyanın da bünövrəsini bu kimi prioritetlər təşkil edir. DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı polis serjantı İbrahim Şərbətov da Vətənə, dövlətə xidmət dərslərindən beş alan, Vətən savaşı adlı ən çətin sınaqdan üzü ağ çıxan gəncliyimizin nümayəndəsidir. O, 2002-ci ildə Cəlilabadın Qarazəncir kəndində doğulub. Cəlilabad rayon 1 nömrəli tam orta məktəbi bitirdikdən sonra 2020-ci ildə hərbi xidmətə yola düşüb. Əsgər kimi ilk sınağı Vətən müharibəsi olub. Ölüm, həyat fəlsəfəsini onun kimi gənclərə öyrətmək üçün heç bir müəllimə ehtiyac olmayıb. "Canı dişində gəzənlərin" qisasının necə ağır və qorxulu olduğunu düşmənə 44 gün ərzində hiss etdirənlərin sırasında addımlamaq İbrahimin alın yazısı idi: "Biz düşməndən hər cəhətdən üstün idik. Təminatımız, silahımız, sursatımız yüksək səviyyədə idi. Ən əsası, hər bir əsgərimiz, döyüş yoldaşlarım qalibiyyət ruhuna köklənmişdi. Biz öz torpaqlarımız uğrunda döyüşürdük. Bizim olanı geri qaytarmaq uğrunda son nəfəsimizə, son damla qanımızadək döyüşməyi qarşımıza məqsəd qoymuşduq". O, Murovdağ, Suqovuşan, Füzuli istiqamətlərində gedən döyüşlərdə iştirak edərək düşmənə qan uddurub. Müzəffər Ali Baş Komandanın sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Daxili İşlər orqanlarında xidmət etmək üçün etdiyi müraciətə DİN rəhbərliyi müsbət yanaşıb və polis serjantı İbrahim Şərbətov 2023-cü ildən sıralarımızda sabitliyin, asayişin keşiyindədir.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Peşəkarların xidməti

## Mühafizə polisi etibarlı keşikçidir

Həyatımızın ayrılmaz hissəsinə çevrilən müasir texnoloji yeniliklər işimizi asanlaşdırsa da yenə də insan amilini gözardı etmək olmaz. Çünki elə xidmət sahələri var ki, orada peşəkarların fəaliyyətini sözün əsl mənasında müasir texnika əvəz etmir. Belə olan halda nəzərlər daha etibar olunan, təhlükələrin təhdidə çevrilməməsinin qarşısını vaxtında almaq üçün həyatını belə riskə atan peşə sahibinə-polisə yönəlir.

Polisin fəaliyyətinin təqdir olunması onun vəzifə borcuna müsbət yanaşmasının göstəricisidir. Yəni polisin faydalı iş əmsalının göstəricisi vətəndaş məmnunluğudur ki, bu da DİN rəhbərliyi tərəfindən hər bir əməkdaşın qarşısında həm də tələb kimi qoyulub.

Polis olan yerdə törədiləcək cinayətin qarşısı önlənir. Bu





mənada mühafizə polisinin fəaliyyəti də təqdir olunasıdır. Məhz mühafizə polisinin xidmətindən istifadə edənlər mənzil və obyektlərdə gizli talama cinayətlərindən, bədbəxt hadisələrdən maksimum sığortalanmaq üçün bunu ən doğru seçim hesab edirlər.

Təsadüfi deyil ki, ölkəmizdə polisin mühafizə etdiyi yaşayış yerində və ya obyektdə indiyədək qarət hadisəsi baş tutmayıb, əmlakı qorunan şəxs zərər çəkməyib.

Bu günlərdə Abşeronda mühafizə polisinin operativliyi sayəsində mühafizə sistemi ilə qorunan daha bir obyektdən oğurluğa cəhdin qarşısı alınıb.

Bir neçə gün öncə saat 02.29 radələrində Abşeron Rayon Mühafizə İdarəsi tərəfindən MMM-lə mühafizə olunan vətəndaş Y.Əliyevə məxsus Mehdiabad qəsəbəsindəki bağ evindən həyəcan siqnalı daxil olub. Dərhal dislokasiya üzrə tutucu qrupun polis nəfərləri, polis serjantları Nihat Əsgərli və İlkin Xasaylı özlərini həmin ünvana çatdırıblar. Operativliyin müddətini dəqiq göstərmək üçün xüsusilə vurğulamalıyıq: siqnal qəbul edildikdən 3 dəqiqə sonra. Hadisə yerinə baxış keçirilən zaman 2 mərtəbəli bağ evinin 1-ci mərtəbəsindəki mətbəxin qapısının açıq olduğu aşkarlanıb. Polis əməkdaşları içəriyə daxil olduqda bir nəfərin hasara tərəf qaçdığını görüblər və onu dərhal saxlayıblar.

Şübhəli şəxs Abşeron Rayon Polis İdarəsinin Mehdiabad Polis Bölməsinə təhvil verilib. Polis Bölməsində həmin şəxsin əvvəllər də anoloji cinayətlərə görə dəfələrlə məhkum olunmuş Fikrət Gülməmmədov olduğu məlum olub. Bu fakt da o gerçəkliyi diktə edir ki, mühafizəyə almaq, müdafiə etmək, ayıq-sayıq keşik çəkmək peşəkarlara həvalə olunmalıdır. Yeri gəlmişkən, belə müsbət göstəricilər həm də yerlərdə xidmətin nümunəvi təşkilindən qaynaqlanır.

# Uşaqları öyrədirik…

## Təhlükəsizliyin qarantı qaydalara riayət etməkdir

Zərdab Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin təşkilatçılığı ilə rayon ərazisində yerləşən Gənclər Evində "Yol



hərəkəti qaydalarına riayət etmək təhlükəsizliyin qarantıdır" mövzusunda maarifləndirici görüş keçirilib.

Çıxış edən polis əməkdaşları keçirilən tədbirin əsas mahiyyətinin azyaşlıları yol hərəkəti təhlükəsizliyi qaydaları ilə tanış etmək və onların iştirakı ilə baş verə biləcək yol qəzalarının qarşısını almaq olduğunu bildiriblər. Tədbir zamanı yollarda quraşdırılan yol nişanları, işıqforlar və piyada keçidlərinin əhəmiyyətindən danışılıb, nişanlardan düzgün istifadə qaydaları haqqında geniş məlumatlar verilib.

Görüşün sonunda azyaşlılara hədiyyələr təqdim olunub.

Qazaxda isə məktəblilər Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsində qonaq olublar. Burada şagirdlərə yol polisinin xidməti fəaliyyəti, sürücülərin və piyadaların rahat, təhlükəsiz hərəkəti üçün görülən işlər barədə məlumat verilib. Məktəblilər növbətçi hissə, xidməti otaqlarla və YPX-nin xidməti avtomobilləri ilə yaxından tanış olublar. Şagirdlərə avtomobillərdə quraşdırılan sistem barədə məlumat verilib, əyani olaraq rayon ərazisindəki piyada keçidlərindən, işıqfordan istifadə qaydaları, eləcə də digər yol hərəkəti qaydaları izah olunub. Sonda azyaşlılara yollarda diqqətli olmaları tövsiyə edilib, onların sualları cavablandırılıb.

*"Polis"*

# Lənkərandan başlanan əməliyyat

## Narkoşəbəkə üzvləri tutuldu

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinə növbəti dəfə külli miqdarda narkotiklərin ölkəyə qeyri-leqal yollarla gətirildiyi barədə əməliyyat məlumatı daxil olub. Narkotiklərin ölkə ərazisində daşınması, ünvanlara çatdırılması və satış şəbəkəsini quran şəxsin müəyyən edilməsi məqsədi isə xüsusi əməliyyat planı hazırlanaraq həyata keçirilib. Lənkəran rayonundan başlayan əməliyyata paytaxtın Sabunçu rayonu ərazisində yekun vurulub. Narkoşəbəkənin ölkə üzrə əsas üzvlərindən olan şəxs - əvvəllər də narkotik və digər cinayətlərə görə dəfələrlə məhkum olunmuş 31 yaşlı Elgün Əliyev bu əməliyyatın nəticəsi olaraq saxlanılıb. Onun evindən və sərnişin kimi əyləşdiyi avtomobildən 36 kiloqrama yaxın tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana aşkarlanıb. Bu şəxs ifadəsində marixuananı şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşının vasitəsi ilə əldə etdiyini etiraf edib.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Dələduzluq etmişdi

## Keçmiş məhkumun "xeyirxahlığı"

"TikTok" sosial şəbəkəsində vətəndaşların pul vəsaitlərinin "xanımların işlə təmin edilməsi" və digər adlar altında yerləşdirilən şirnikləndirici elanlarla aldadılaraq ələ keçirilməsi barədə polisə müraciətlər daxil olub. Polis əməkdaşları tərəfindən Hacıqabul rayonunda həyata keçirilən tədbirlərlə qeyd edilən kibertalama əməllərini törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Yevlax rayon sakini Rüfət Cəfərov saxlanılıb. Araşdırmalarla R.Cəfərovun sosial şəbəkələrdə özünü işədüzəltmə şirkətlərinin birinin nümayəndəsi kimi təqdim etdiyi və 57 nəfərin pul vəsaitlərini ələ keçirdiyi müəyyən edilib.

tFaktlarla bağlı araşdırmalar davam etdirilir.

# Üç rayonda əməliyyat keçirildi

## Faktlarla bağlı araşdırma aparılır

Paytaxtın Nərimanov, Yasamal və Suraxanı rayonları ərazilərində narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı daxil olan məlumatlar əsasında polis əməkdaşları tərəfindən əməliyyatlar keçirilib. Nəticədə narkotik vasitələrin qanunsuz dövriyyəsini həyata keçirən G.Saqiyev, N.Rzayev, Ş.Qasımov, əvvəllər də eyni əmələ görə məhkum olunmuş H.Qurbanov və S.Cəfərov müəyyən olunaraq saxlanılıblar. Onlardan ümumilikdə 20 kiloqrama yaxın müxtəlif adda narkotik maddələr və psixotrop tərkibli həblər aşkarlanaraq götürülüb. Faktlarla bağlı araşdırma aparılıb.

# Polis Akademiyasına müsabiqə başlayıb

## Şərtlər, yaradılan şərait və perspektivlər






**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012) 590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının "8880" qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**




# Valideynlər “Açıq qapı”-dan keçiblər

## Gələcəyin polisləri üçün yaradılan şərait onları məmnun edib

I kurs kursantlarının valideynlərindən ibarət bir qrup onların maddi, sosial təminatları və imtiyazları ilə yaxından tanış olmaq məqsədilə Polis Akademiyasını ziyarət ediblər. Qonaqlar Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, “İnformasiya təhlükəsizliyi” fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, yataqxanalar, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar. Ali təhsil müəssisəsində təhsil alan hər bir kursantın sağlam şəraitdə qidalanması və dincəlməsi üçün yaradılan şəraiti yüksək qiymətləndirən qonaqlar yeməkxanada öz övladları ilə birlikdə nahar etmək imkanı da qazanıblar. Polis Akademiyasının idman meydançaları və zalları ilə tanış olan valideynlərin diqqətinə çatdırılıb ki, tədris ocağında kursantların fiziki cəhətdən sağlam ruhda tərbiyə olunmalarına xüsusi diqqət yetirilir.



Sonra kursantlar və onların valideynləri Akademiyanın rəhbərliyi ilə görüşüblər. Polis Akademiyasının rəisi, polis general- mayoru Canpolad Daanov qonaqlara Akademiyada yaradılan imkanlar, şərait, güzəştlər və nəzərdə tutulan işlər barədə məlumat verib, onları maraqlandıran suallları cavablandırıb. Valideynlər övladlarının yüksək təhsil alması, gələcəkdə Azərbaycan Polisinin sıralarında inamlı xidmət etmələri üçün Akademiyada yaradılmış şəraitə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə öz təşəkkürlərini bildiriblər.

# Media müsabiqəsi keçirilir

## Müsabiqənin təşəbbüskarı Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının təşəbbüsü ilə Birlik ölkələrinin dövlət və ictimai qurumları ilə medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, hüquq-mühafizə orqanlarında xidmətin təşviqi və MDB üzvü olan dövlətlərin daxili işlər orqanları əməkdaşlarının nüfuzunun artırılması məqsədi ilə 2025-ci il üçün müsabiqə elan edilir.

Müsabiqədə MDB-yə üzv olan ölkələrin polis və mülki əməkdaşları ilə bərabər 18 yaşından yuxarı olan digər vətəndaşlar da iştirak edə bilərlər.

İştirakçılar müsabiqənin şərtləri və qaydalarına dair ətraflı məlumatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbopcis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış ola bilərlər. Müsabiqəyə foto və media işləri üzrə təqdim edilən nominasiyalar aşağıdakılardır.

1. **"Qələbə günü"**
2. **“Doğma diyarın gözəlliyi”**
3. **“Bizim növbəmiz”**
4. **"Postda"**

İşlər rəqəmsal formatda təqdim edilməlidir.

Müsabiqə hər il iki mərhələdə keçirilir.

Müsabiqənin birinci mərhələsi 2025-ci ilin yanvarın 10-dan iyulun 10-dək keçirilir. Bura iştirak üçün ərizələrin göndərilməsi, işlərin qəbulu və seçilməsi daxildir.

İkinci mərhələ 11 iyul - 31 iyul 2025-ci il tarixlərini əhatə edir. Bura müsabiqə komitəsi tərəfindən işlərin qiymətləndirilməsi daxildir.

Müsabiqədə iştirak etmək üçün iştirakçılar ərizələri doldururlar.

Ərizə hər bir iş üçün rus dilində doldurulur və müəllif tərəfindən imzalanır. Ərizədəki bütün sahələrin doldurulması tələb olunur.

*"Polis"*

# Yaradılışın daha bir möcüzəsi

## Barmaq izi nədir və onun əsas xüsusiyyətləri nələrdir?

Barmaq izi insanın barmaq uclarındakı dəridə yerləşən və hər bir fərdin özünəməxsus olan naxışlardır. Bu naxışlar adətən üç əsas kateqoriyaya bölünür: qövs, dövrə və qarmaqşəkilli izlər. Barmaq izlərinin unikal olması onların həm irsi, həm də prenatal inkişaf zamanı təsadüfi faktorlarla formalaşması ilə bağlıdır. Dəridəki bu izlər yalnız barmaq uclarında deyil, həmçinin ovuc və ayaq barmaqlarında da mövcuddur.

Barmaq izləri doğuşdan əvvəl formalaşır və ömür boyu dəyişməz qalır. İnsan dərisinin xarici qatı zədələnsə də, bu izlər dərin dermal qatlarda yerləşdiyindən dəyişir. Hətta dərinin xarici təbəqəsi tamamilə soyulsa belə, bədən yenidən eyni naxışları yaradır. Bu xüsusiyyət barmaq izlərini biometrik identifikasiya üçün əvəzolunmaz edir. Barmaq izlərinin digər bir mühüm xüsusiyyəti onların insanın fərdi şəxsiyyətini təsdiqləmək üçün istifadə edilməsidir. Cinayət işlərində və biometrik təhlükəsizlik sistemlərində barmaq izləri ən etibarlı identifikasiya vasitələrindən biri kimi qəbul edilir.

**Barmaq izləri necə formalaşır?**

Barmaq izlərinin yaranmasında genetik amillər əhəmiyyətli rol oynasa da onların unikal olması yalnız genetika ilə məhdudlaşmır. Məsələn, eyni genetik materialı paylaşan monoziqotik əkizlərin belə barmaq izləri bir-birindən fərqlənir. Genlər barmaq izlərinin əsas strukturunu, məsələn, qövs, dövrə və ya qarmaq formasını müəyyən edə bilər. Lakin bu strukturların detalları, xəttlərin sayı, bucaqları və yerləşmi prenatal dövrdə təsadüfi təsirlər nəticəsində formalaşır.

Valideynlərin genetik materialı fetusun barmaq izlərinin əsas naxışlarını müəyyən etsə də, ətraf mühit faktorları bu izlərin tam bənzərsiz olmasına səbəb olur. Məsələn, ana bətnindəki uşağın hərəkətləri, amniotik mayenin təzyiqi və bətndaxili temperatur dəyişiklikləri naxışların inkişafını təsir edir. Genetik faktorlar və prenatal təsirlər birgə işləyərək hər bir fərdin özünəməxsus barmaq izlərini yaradır. Bu prosesin mürəkkəbliyi barmaq izlərinin təsadüfən bir-birinə bənzər olmasının praktiki olaraq mümkünsüz olduğunu göstərir. Bu həm biologiyanın, həm də identifikasiya texnologiyalarının əsaslandığı mühüm bir faktdır.

Barmaq izləri ana bətnində hamiləliyin 10-16-cı həftələri arasında formalaşmağa başlayır. Bu dövrdə fetusun dərisində dermal papilla adlanan qatlar inkişaf edir və bu qatlar barmaq izlərinin əsasını təşkil edir. Dermal papillaların inkişafı genetik faktorlarla yanaşı təsadüfi prenatal təsirlərdən də asılıdır. Ana bətnindəki uşaq hərəkət etdikcə amniotik mayenin təzyiqi və digər fiziki təsirlər barmaq izlərinin unikal formasını yaradır. Hər bir barmağın izləri fərqli təsirlərə məruz qaldığından barmaq izləri arasında da fərqlər olur. Məsələn, sol əlin baş barmağındakı iz ilə sağ əlin baş barmağındakı iz bir-birindən fərqlənir.

Hətta eyni şəraitdə doğulan əkizlərdə belə bu fərqlilik müşahidə olunur. Barmaq izlərinin formalaşması zamanı temperatur dəyişiklikləri, oksigen təminatı və qan dövranının sürəti də təsir göstərir.

Bu proses insan bədənindəki digər sistemlərdən tamamilə asılı olmadan müstəqil şəkildə inkişaf edir. Prenatal inkişafın mürəkkəbliyi barmaq izlərinin unikal olmasını təmin edən əsas amillərdən biridir.

**Barmaq izi cinayətin əsas sübutlarındandır**

Barmaq izləri müasir dünyada identifikasiya üçün ən etibarlı üsullardan biridir. Hüquq-mühafizə orqanları uzun müddətdir ki, cinayət işlərinin həllində barmaq izlərindən istifadə edir. Cinayət yerindən götürülən barmaq izləri cinayətkarın müəyyən edilməsində mühüm rol oynayır.

Biometrik təhlükəsizlik sistemlərində də barmaq izlərindən geniş istifadə olunur.

Məsələn, müasir smartfonlarda, təhlükəsiz giriş sistemlərində və hava limanlarında barmaq izi skanerləri tətbiq edilir.

**Barmaq izləri niyə dəyişmir?**

Barmaq izlərinin dəyişməməsinin əsas səbəbi onların dərinin alt qatlarında yerləşməsidir. Dərinin üst qatı, yəni epidermis daim yenilənir və müxtəlif təsirlərə məruz qala bilər.

Lakin barmaq izlərini yaradan dermal papilla strukturları dərinin alt qatında yerləşir və xarici təsirlərdən qorunur. Zədələr, kəsiklər və ya yanıq izləri dərinin üst qatını dəyişdirsə də, dermal papillalar sağlam qaldıqda barmaq izləri əvvəlki formasını yenidən alır. Barmaq izlərinin dəyişməz olması həm hüquq-mühafizə orqanları, həm də biometrik texnologiyalar üçün böyük üstünlük təşkil edir.

Bu, eyni zamanda, barmaq izlərinin insan təbiətinin unikal bir hissəsi olduğunu göstərir.

*Aytən Tahirova*
*polis kapitanı*

# Müdriklərin söz xəzinəsi

## Vaxt insana hər şeyi öyrədir

Bir dəfə səhv etməkdənsə, iki dəfə soruşmaq yaxşıdır.

❖❖❖

Hər kəs öz taleyinin memarıdır.

❖❖❖

Zamanın axarı bizi gözləmir.

❖❖❖

Həqiqət nazilər, ancaq üzülməz.

❖❖❖

Cəsarət qol gücündən deyil, ruh gücündən yaranır.

❖❖❖

Alim inamlı olanda kəşfi davamlı olur.

❖❖❖

Sənə pislik edənə dərhal nifrət etməyə çalışma.

❖❖❖

Yaxşı elə yaxşıdır, çalış yamanı yaxşı elə.

❖❖❖

Mənəm-mənəm deyən adam az iş görən olur.

❖❖❖

Əvvəlcə dinləməyi, sonra danışmağı bacarmaq gərək.

❖❖❖

Gözləməyi bacaran çox şeyə nail olar.

❖❖❖

Zəiflər intiqam alır, güclülər bağışlayır, əfv edirlər

❖❖❖

Zaman böyük bir müəllimdir, amma təəssüf ki, şagirdlərini öldürür.

❖❖❖

Bütün yollar qaranlıqdan işığa doğrudur.

❖❖❖

Qabiliyyətin məktəbi yoxdur.

❖❖❖

İnsanı böyük mənada insan zirvəsinə ucaldan danışmağından çox susmağıdır.

❖❖❖

Köhnə məktubları oxumaq xoşdur ona görə ki, onlara cavab verməyə ehtiyac yoxdur.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik